## Azərbaycan tarixin öyrənilməmiş səhifələri

# 20 Yanvarda xalqı müdafiə etmiş DTK əməkdaşları

**Çağdaş Azərbaycan tarixinin obyektiv tədqiq olunmamış mövzularından biri 1988-1991-ci illərdə həyatlarını risk altında qoyaraq rejimə qarşı mübarizəyə dəstək vermiş Dövlət Təhlükəsizlik Komitəsinin azərbaycanlı əməkdaşlarının fəaliyyəti ilə bağlı mövzudur.**



**Məhərrəm Zülfüqarlı**
**Tarix elmləri doktoru, professor**

***İman Abdullayev:*** *"Bobkov sən cinayətkarsan, sən Azərbaycan xalqının qanını içmisən"*

***Eldar Nicatov:*** *"Yoldaş general biz... sizdən həqiqəti gözləyirdik. Siz isə erməni millətçiləri və seperatçılarının sözlərini tamamilə təkrar edirsiniz"*

***Şahverdi Arifov:*** *"Mərkəzin göstəişlərinə əsasən bütün Azərbaycan xalqından hətta ov silahları belə yığışdırılmışdı... Erməni əhalisi isə bu vaxt təpədən dirnağa qədər silahlandırılmışdı"*

1988-ci ildən başlayaraq bu günə kimi bir sıra siyasətçilərin bir-birini KQB (DTK) agenti olmaqda ittiham etməsi, KQB arxivlərinin indiyənə qədər açılmaması bu qurumda xalqı müdafiə etmiş şəxslər haqqında müsbət fikir söyləməkdən sanki insanları çəkindirmişdir. Bu qəhrəman insanların təvəzökarlıq götərməsi və müəyyən səbəblərdən gördükləri işlər haqqında danışmağa meyl etməmələri də uzun zaman onların fəaliyyətindən xalqın məlumatsız qalmasına səbəb olmuşdu.

Milli-azadlıq hərəkatı liderlərinin bəziləri öz çıxışlarında epizodik olaraq xalqın mübarizəsinə dəstək verənlər arasında DTK-nın azərbaycanlı nümayəndələrinin olmasını qeyd etsələr də, onların adlarını heç zaman çəkməmişlər. Onların fikrincə bu bir dövlət sirri olaraq daim qapalı qalmalı olan məsələlərdən hesab olunurdu. Lakin fikrimizcə bunlar artıq deyilməli, xalq uzun müddət kölgədə qalmış öz qəhrəmanlarını şəxsən tanımalıdır. Bu qəhrəman insanlar haqqında məlumat əldə etmək çox çətin olsa da tarixçilər bu istiqamətdə araşdırmalarını davam etdirməlidirlər. Fikrimizcə bu tarixi ədaləti bərpa etmək, unudulmuş qəhrəmanları xalq tanıtmaqla yanaşı, həm də çağdaş Azərbaycan tarixinin obyektiv işıqlandırılmasında, saxtakarlıqların aradan qaldırılmasında mühüm rol oynaya bilər.

Nəhayət uzun müddət diqqətdən kənarda qalmış bu mövzu hadisələrin iştirakçıları və canlı şahidləri olmuş Yalçın Nəbiyevin və Fazil İmamverdiyevin köməkliyi ilə 2025-2026-cı illərdə gündəmə gəldi. Yalçın Nəbiyevin nəşr olunmuş "Bir zamanlar DTK" kitabında [3] və DİB TV-də "KQB əməkdaşı o gecə baş verənlərdən danışdı. 20 yanvarla bağlı şok faktlar üzə çıxdı" başlıqlı verlişdə [4] istefada olan təhlükəsilik polkovniki Fazil İmamverdiyevin müsahibəsində uzun müddət xalqdan gizli qalan həqiqətlərin bir hissəsinə aydınlıq gətirildi. Dövlət Təhlükəsizlik Komistəsində uzun illər işləmiş bu iki vətənpərvər insanın xatirələri bəzi qaranlıq məsələlərin üzərinə işıq salmağa imkan verdi.

Yalçın Nəbiyevin kitabı - ön sözdən, "Moskva sentyabr 1987-ci il", "Naxçıvanda tətil", "Hadisələri izləməkdə davam edin", "Bakı və Yerevan", "Əlvida Moskva", "Azadlıq meydanı", "Vəziyyət gərginləşməkdədir", "İyirmi yanvara doğru", "Düşmən pusquda", " Artaşatda dolma məsələsi", "Dağlarda döyüş və ya sapı özümüzdən olan baltalar", "DTK-dan MTN-ə" başlıqlı XIII fəsildən və "Sakit üfüqlər və ya həyat davam edir" başlıqlı epiloqdan ibarətdir.

Polkovniki Fazil İmamverdiyevin müsahibəsində ""Dağlıq Qarabağ" münaqişəsininə dövrün rəhbərliyi necə laqeyd yanaşdı?", "Xalq Hərəkatını və Xalq Cəbhəsini kim və niyə yaratdı?", " Elçibəy necə AXCP-nin sədri seçilib?", SSRİ-i Xalq Cəbhəsi Partiyasını hansı məqsədlərlə istifadə etmək istəyirdi?", "SSRİ-nin ALFA qrupu Azərbaycanda hansı təxribatlara əl atmaq istəyirdi?", "SSRİ-nin kəşfiyyat qrupu hansı azərbaycanlılardan istifadə edirdi?", "Biz mütləq ərəb əlifbasını gətirəcəyik", "19 və 20 yanvar gecəsi nələr baş verdi?", "Sən cinayətkarsan!" və s. məsələlərə haqqında öz fikirlərini bölüşüb.

Qeyd olunan kitab və müsahibədə Dövlət Təhlükəsizlik Komistəsinin azərbaycanlı əməkdaşlarından İman Abdullayev, Eldar Nicatov, Şahverdi Arifov və hələlik geniş ictimaiyyətə adları məlum olmayan digər mərd insanların uzun illər kölgədə qalmış fəaliyyəti haqqında faktlar işıq üzü görüb.

Bunların arasında BDU-nun ( o zaman ADU) Tarix fakültəsində eyni dövrdə təhsil aldığımız İman Abdullayevin adına rast gəlməyimiz mövzuya marağımızı daha da artırdı.

İman Əli oğlu Abdullayev - 7 fevral 1957-ci ildə Əlibayramlı (indiki Şirvan şəhərində anadan olub.1973-1978-ci illərdə Azərbaycan Dövlət Universitetinin ( hazırda Bakı Dövlət Universiteti) tarix fakültəsində təhsil alıb. 1978-1982-ci illərdə Əlibayramlı şəhər 2 saylı orta məktəbdə müəllim, direktor müavini, şəhər komsomol komitəsinin şöbə müdiri vəzifələrində çalışıb.

1982-1994-cü illərdə SSRİ Dövlət Təhlükəsizlik Komistəsinin Minsk şəhərindəki məktəbində təhsil alıb. Məktəbi bitirdikdən sonra Azərbaycan təhlükəsilik orqanlarında çalışıb. Kiçik əməliyyat müvəkilindən idarə rəisi vəzifəsinə qədər yüksəlib. Münaqişə zonalarında aparılmış döyüş əməliyyatlarında iştirak edib. 20 yanvar faciəsi dövründə mayor rütbəsində olub. Sonradan polkovnik rütbəsində təhlükəsilik orqanlarında tərxis olunub. 26 fevral 2001-ci ildə bağırsağında edilən uğursuz cərrahiyə əməliyyatı nəticəsində 44 yaşında vəfat edib.

Çağdaş Azərbaycan milli azadlıq hərəkatında Bakı Dövlət Universitetinin, xüsusilə BDU-nun tarix fakültəsinin rolu danılmazdır. Sonradan milli-azadlıq hərəkata rəhbərlik etmiş şəxslər, nazirlər, deputatlar və milli -azadlıq hərəkatında fəal iştirak etmiş yüzlərlə şəxs İman Abdullayevlə eyni vaxtda bu fakültədə təhsil almışlar. Belə bir mühitdə təhsil alan İman Abdullayevdə millətə, vətənə bağlılıq hissi güclü idi. Bu da təhlükəzslik orqanında fəaliyyəti dövründə özünü biruzə vermişdi.

1992-1993-cü illərdə MTN sədrinin birinci müavini olmuş Sühəddin Əkbər "Azadlıq" radiosuna 3 iyun 2020-ci il tarixli müsahibəsində həmin qurumda İman Abdullayevin köməkliyi ilə milli kadrlardan ibarət komandanın yaradılması haqqında məlumat vermişdi.

Uzun müddət 20 yanvarla bağlı ictimai rəydə sabiq Daxili İşlər Naziri İsgəndər Həmidovun SSRİ Daxili İşlər Naziri Bakatinin ona uzatdığı əlini almayaraq "sənin əlin qana batıb" deməsi geniş yayılmış və əhali arasında onun nüfuzunun artmasına müsbət təsir göstərmişdi. Lakin Dövlət Təhlükəsizlik Komistəsinin azərbaycanlı əməkdaşlarından İman Abdullayev, Eldar Nicatov, Şahverdi Arifov və başqalarının faciədən dərhal sonra 21 yanvar 1990-cı il tarixdə səhər keçirilən toplantı zamanı SSRİ DTK sədrinin birinci müavini general polkovnik Filip Denisoviç Bobkovun Azərbaycan xalqına qarşı böhtançı çıxışını kəsərək onu cinayətdə ittiham etmələri haqqında bu günə qədər əhalidə məlumat hələ də yox dərəcəsindədir.

20 yanvar faciədən qabaq Bakıda gərginliyi artırmaq məqsədilə Moskva əvvəl Xanlar və Qubadlıya hərbi vertolyotların hücumunu təşkil etmiş, lakin bu təxribat istənilən nəticəni vermədikdə, Bakıda yanvarın 13-də erməni talanları təşkil edilmişdi. Bu talanları Moskvadan Bakıya ezam olunmuş DTK-nın yüksək rütbəli zabitlərinin rəhbərliyi ilə xüsusi təyinatlı dəstə olan "Alfa" qrupu təşkil etmişdir. Bu qrupub üzvləri qabaqcadan Bakıda yaşayan ermənilərin ünvanlarını toplayaraq bu cinayətləri törətmək və bunu Azərbaycan xalqının üstünə atmaqla Bakıya qoşun yeridilməsi bəhanə əldə etməyi planlaşdırmışdılar. Bu təxribatlara DTK-da çalışan həyat yoldaşları başqa millətlərdən olan azərrbaycanlı əməkdaşlar cəlb olunsalar da, təmiz azərbaycanlı ailəsi olan milli kadrlar bütün sahələrdən təcrid olunaraq fəaliyyətlərinə qadağa qoyulmuşdu. Bu Moskvadan ezam olunmuş generalların milli kadrlara inamsızlığı, faciədən sonra DTK-nı milli kadrlardan təmizləmək və baş vermiş faciədə onları də ittiham etmək üçün qabaqcadan planlaşdırılmışdır.

Yanvarın 13-də Bakıda bir ermənin iki azərbaycanlını öldürməsinə cavab olaraq erməni talanları başlandı. 56 nəfər öldürüldü, 112 nəfər xəsarət aldı. Talançı dəstələrin azğın əməllərinə nə yerli hüquq mühafizə orqanları, nə də o zaman Bakıda olan SSRİ Daxili İşlər Nazirliyinin 12 minlik silahlı qüvvəsi mane olurdu. Onlar milli münaqişəyə qarışmamaq əmri almışdılar. Əhalinin köməyi ilə ermənilərin çoxu evlərdə, məscidlərdə, hərbi hissələrdə sığınacaq tapdı. Milli Müdafiə Şurasının özünümüdafiə dəstələrinin gücü ilə yanvarın 15-də, demək olar ki, talanların qarşısı alınmışdı. Milli Müdafiə Şurasının dəstələri şəhərə nəzarət edirdilər.

AXC üzvləri hər yerdə camaatı başa salırdılar ki, "ermənilərin evini dağıtmağın, onları evlərində döyməyin ümumi məsələnin həll olunmasında heç bir xeyri yoxdur. Ancaq bu Bakıya qoşun yeritməsi üçün Moskvaya bəhanə verər".

1990-cı ilin 20 yanvarıda Bakıda faciənin törədilməsinin əsas səbəbini qısa olaraq belə izah etmək olar: "1989-cu ilin sentyabrından Azərbaycan rəhbərliyinin əhali arasında nüfuzu çox aşağı düşmüşdü. Bunu əksinə olaraq AXC-nın reytinqi artmaqda davam edirdi. 1990-cı il martında Respublikada Ali Sovetə, yəni parlamentə seçkilər keçirilməli idi. Belə vəziyyətdə seçkilərdə AXC-nin qələbə çalacağına şübhə yox idi. SSRİ Konstitusiyasına görə müttəfiq Respublikaların SSRİ-nin tərkibinə daxil olması, oradan çıxması könüllü idi. Deməli seçkilər keçirildikdən sonra Azərbaycan parlamentdə çoxluq təşkil edəcək demokratik qüvvələrin səyi ilə Azərbaycan dinc yolla SSRİ-nin tərkibindən çıxa bilərdi. Bunun qarşısını almaq üçün Moskva Bakıda 20 yanvar faciəsini törətdi."

"1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Azərbaycan Respublikası Milli Məclisinin qərarında (29 mart 1994-cü il) qeyd olunur ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə və Azərbaycanın bir neçə rayonuna keçmiş Sovet İttifaqının qoşun hissələri fövqəladə vəziyyət elan edilmədən yeridilmiş, dinc əhaliyə divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış, itkin düşmüşdür… Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışlar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdür. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir. Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublika rayonlarında 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olmuşdur. SSRİ Konstitusiyası, Azərbaycan SSR Konstitusiyası kobudcasına pozulmuş,Azərbaycan Respublikasının suveren hüquqları tapdalanmışdır.

Qanlı yanvar faciəsinə etiraz əlaməti olaraq Naxçıvan MSSR Ali Soveti SSRİ - nin və müvafiq surətdə Azərbaycan SSR - in tərkibindən çıxmaq haqqında qərar qəbul etsə də, yanvarın 27 - də Azərbaycan SSRİ Ali Soveti bu qərarı ləğv etdi. Yanvarın 22 - də Azərbaycan SSR Ali Soveti Bakıda fövqəladə vəziyyətin tətbiqini qeyri - qanuni hesab edərək, onu ləğv etməsinə baxmayaraq, Azərbaycan KP MK bürosu fövqəladə vəziyyətin qalmasını lazım bildi.

20 yanvar faciəsindən sonra Kommunist Partiyasına qarşı yaranmış ümumxalq nifrəti partiya biletlərinin yandırılması və onun sıralarından kütləvi surətdə partiya üzvlərinin çıxması ilə nəticələnmişdir. Xalqın bu çətin günlərində onun dərdinə şərik olanlar, həyatlarını riskə ataraq sovet rəhbərliyinə qarşı qətiyyətli mövqe nümayiş etdirənlər arasında Dövlət Təhlükəsizlik Komistəsinin yuxarıda adları çəkilən azərbaycanlı əməkdaşları da olmuşdu. İstefada olan təhlükəsilik polkovniki Fazil İmamverdiyev yuxarıda qeyd olunan müsahibəsində İman Abdullayevin faciə vaxtı qətiyyətli, cəsarətli fəaliyyəti barədə deyir:

***(Ardı növbəti sayımızda)***